# Boranı (balqabaq)

**(lat. Cucurbita)**

Azərbaycanda boranının bir neçə növü becərilir. Boranı qiymətli tərəvəz bitkisi olmaqla bərabər, çox mühim müalicəvi əhəmiyyətə də malikdir. Bu tərəvəz bitkisi karotinlə (A provitamini ilə) çox zəngindir. Ona görə də boranıdan hazırda sənayedə karotin istehsal etmək üçün istifadə olunur.Onun tərkibində 16 mq % karotin, C, B1, B 2 vitaminləri və 11 faizə qədər şəkər vardır.



Boranını bişirib xroniki mədə-bağırsaq, böyrək və sidik yolları xəstəliklərində yemək çox faydalıdır.

Bitkinin lət hissəsi və şirəsi qəbizliyin qarşısını almaqla yanaşı iltihabı aradan qaldırır, böyrək və sidik yollarının fəaliyyətini tənzimləyir. Toxumlarının isə qurdqovucu təsiri vardır.

İstifadə qaydası: boranını dilim-dilim doğrayaraq bişirib yemək məsləhətdir. Lentvari qurdları qovmaq məqsədilə boranı toxumlarını qabıqlarından təmizləyəndən sonra, acqarına gündə 3-4 dəfə, hər dəfə 200-300 qram yemək məsləhət görülür.

# İdman xəbərləri

"Qəbələ" Futbol Akademiyasının komandaları növbəti oyunlarını keçirib. AFFA-nın təşkil etdiyi liqalarda qüvvəsini sınayan təmsilçilərimiz 10 matçda 9 qələbə qazanıb.



## «Qəbələ»dən 9 qələbə

U-17 öz meydanında "Xəzər Lənkəran"a 5:0 hesabı ilə qalib gəlib.

U-16 səfərdə "Səbail"i məğlub edib - 5:1.

Səfərdə "Neftçi" İK İB-ə 4:0 hesabı ilə qalib gələn U-15 isə yarışın lideridir.

"Sumqayıt"la qarşılaşan U-14 böyükhesablı qələbə qazanıb - 8:1.

U-13 isə "Sabah"a uduzub - 0:2.

U-12 Liqada UGİM ("Qəbələ") UGİM (Ağdaşa) 10:0, UGİM (Yevlağa isə) 6:1 hesabı ilə qalib gəlib.

İtkisiz irəliləyən U-11 isə 7-ci qələbəsini "Rabitəçi" (Yevlax) üzərində qazanıb - 9:1.

UGİM (Yevlax) ilə üz-üzə gələn "Qəbələ"nin U-10 komandası 12:1, UGIM "Rabitəçi"ylə (Yevlax) qarşılaşan UGİM "Qəbələ" 9:1 hesabı ilə qələbə əldə edib.

## Boksçularımızdan 3 medal



Gənc boksçular arasında keçirilən açıq Bakı birinciliyi başa çatıb. Paytaxt və respublikanın müxtəlif bölgələrini təmsil edən 30 komandanın qatıldığı yarışda 140 idmançı mükafatlar uğrunda qüvvəsini sınayıb. Boks Mərkəzində təşkil edilən birincilikdə "Qəbələ" İdman Klubunun üzvləri də mübarizə aparıb.

Boksçularımız yarışda 3 medal qazanıb. 60 kq çəki dərəcəsində çıxış edən Tacəddin Məmməliyev yalnız finalda uduzaraq gümüş mükafata yiyələnib. Yarımfinala qədər irəliləyən İsmət Əmiraslanov (49 kq) və Fərid İsmayıllı (69 kq) 3-cü yeri tutaraq bürünc medal əldə edib.

## Voleybol turniri keçirilmişdir

"Məktəblilər arasında respublika çempionatı" Qəbələ rayonunda da uğurla həyata keçirilir. Çempionat çərçivəsində idmanın voleybol növü üzrə noyabrın 9-da keçirilən rayon turnirinə yekun vurulmuşdur.

Finalda şəhər 4 nömrəli və Zarağan kənd 2 nömrəli tam orta məktəblərin komandaları görüşmüşlər. 3:0 hesabı ilə qələbə qazanan şəhər 4 nömrəli məktəbin komandası birinci, Zarağan 2 nömrəli məktəbin komandası isə ikinci yerə sahib çıxmışlar.

Turnirin bağlanış mərasimində Qəbələ Rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbinin direktoru Ədalət Əliyev, rayon təhsil şöbəsinin metodisti İbrahim Faxlulov, rayon gənclər və idman idarəsinin aparıcı məsləhətçisi Elçin Osmanov idmançıları "9 noyabr - Dövlət Bayrağı Günü", həmçinin turnirdə qazandıqları qələbə münasibətilə təbrik etmişlər.

Sonda qalib komandalara diplomlar təqdim olunmuşdur.

## Yaponiya gələn il uçan avtomobillərin sınaqlarına başlayacaq

Yaponiya hökuməti gələn il pilotsuz avtomobillərin sınaqlarının keçirilməsinə icazə verməyi planlaşdırır. Məqsəd 2020-ci ildə həmin avtomobillərin istifadəsinə başlamaqdır.



AZƏRTAC xəbər verir ki, bu barədə NHK telekanalı Yaponiya Sənaye və Nəqliyyat Nazirliyinə istinadla məlumat yayıb.

Uçan avtomobillər elektrik enerjisi ilə çalışan və əsasən pilotsuz uçan aparatlar texnologiyasına aid qurğulardır. Dünyanın bir çox şirkətləri avtomobil tıxaclarını aradan qaldırmaq və daha yaxşı logistika xidməti göstərmək məqsədilə bu cür texnikanın hazırlanması üzərində çalışır.

## Azərbaycanda tapılan qədim oyunun qayaüstü rəsmləri amerikan alimlərini heyrətləndirib

Nüfuzlu elm portalı "Science News" noyabrın 16-da "Azərbaycanda tunc dövrünə aid qədim oyunun qayaüstü rəsmləri tapılıb" sərlövhəli məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, Bryus Bauerin müəllifi olduğu məqalədə arxeoloqların 4 min il tarixi olan tunc dövrünə aid qədim "58 xana" oyununun Azərbaycanda aşkar olunmuş qayaüstü rəsmlərinin amerikan alimlərini heyrətləndirdiyi bildirilir. Bu qədim oyun tunc dövründə Mesopotamiya, Misir və Yaxın Şərqin digər ölkələrində geniş yayılıb və bu ərazilərin xalqları tərəfindən "İtlər və çaqqallar" da adlandırılıb.

Məqalədə qeyd olunur ki, Nyu-York şəhərində yerləşən Amerikan Təbiət Tarixi Muzeyinin arxeoloqu Volter Krist noyabrın 15-də Amerikan Şərq Araşdırmaları Məktəbinin illik görüşündə alimlərin təqdim etdikləri bu rəsmləri unikal tapıntı adlandırıb. "Azərbaycan Yaxın Şərq regionundan 1000-2000 kilometrədək məsafədə yerləşir, lakin tunc dövrünə aid bu oyunun Qafqaz dağlarının və Xəzər dənizinin arasında yerləşən xalqlaradək gəlib çıxdığı məlum olur", - deyə arxeoloq vurğulayıb.

"Azerbaijan International" jurnalında "58 xana" oyununun qaya üzərində oyulmuş rəsmlərini görən arxeoloq 2018-ci ilin aprelində Azərbaycana səyahət edib və burada çəkdiyi tapıntının fotoşəkilləri və videomaterialını Nyu-Yorkdakı həmkarlarına təqdim edib.

## Bunları bilmək maraqlıdır

- İnsanın sağ ağciyəri sol ağciyərinə nisbətən özünə daha çox hava yerləşdirir.
- Uşaq doğulanda bədənində 300 sümük olur, böyüdükcə onlardan 206-sı qalır.
- Əl barmaqlarının dırnaqları ayaq barmaqların dırnaqları ilə müqaisədə 4 dəfə tez böyüyür.
- Gözlərimizin diametri 2,5 sm, çəkisi isə 8 qramdır.
- İlk diyircəkli qələmlər 1945-ci ildə satışa çıxarılıb və qiyməti 12 dollar olub.
- İnsan ətraf mühüt haqqında informasiyanın 90 faizini göz vasitəsi ilə alır.
- Mars və Yupiter planetləri arasında yerləşən bölgə Günəş sistemində asteroidlərin ən çox rast gəlindiyi asteroid qurşağıdır.
- Azərbaycanın ən hündür körpüsü Qrız körpüsüdür.
- Planetlərin paradı 179 ildən bir baş verir.

**Topladı: Səfa.**

«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56

## İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 fevral 2001-ci il tarixli 03 saylı qərarı ilə Qəbələ şəhər sakini **Kərimov Məhəmməd Aləşrəf oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 438 F nömrəli (kod 40601004) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ (əvvəlki Qutqaşen) 141 №-li OTPM tərəfindən 3 iyul 1987-ci il tarixdə **Rəsulov Rəsul Səftər oğluna** verilmiş БР seriyalı 226608 nömrəli üçüncü dərəcəli **texnika sürücüsü vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Tüntül kənd sakini **Ağayeva Gülxanım Şurux qızına** verilmiş JN seriyalı 009F nömrəli (kod 40616018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 fevral 1999-cu il tarixli 04 saylı qərarı ilə Nic qəsəbə (əvvəlki kənd) sakini **Qəribov Qabil Eyyub oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 175 F nömrəli (kod 40600068) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2019-cu ilin birinci yarısı üçün abunə yazılışı davam edir

Yarımillik abunə qiyməti 15 manatdır.

Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.

Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.

## ALLAH RƏHMƏT ELƏSİN!

Xalis Məmmədov və Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin kollektivi iş yoldaşları **Məmmədova Aygün Rəhman qızına**

**ATASININ**

vəfatı ilə əlaqədar olaraq dərin hüzunla başsağlığı verir.

Redaktor
Varis Yaqubov.

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

*Məsul katib*
*Qüdrət Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1847*